Bakı şəhəri № 1/11 17 may 2012-ci il

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 346-İVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası ilə əlaqədar Auditorlar Palatasının qarşısında duran vəzifələrin yerinə yetirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi barədə

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 346-İVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanını rəhbər tutaraq, şəffaflığın artırılması və auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi sahəsində Auditorlar Palatası qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə həyata keçirilməsinin təşkili istiqamətində zəruri tədbirlər görülməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, üç ay müddətində Auditorlar Palatası Şurasının 2009-cu il 29 may tarixli 200/5 saylı qərarı ilə təsdiq edilmiş "Siyası partiyalarda auditin aparılmasına dair proqram"ın təkmilləşdirilməsi məqsədilə siyasi partiyaların illik maliyyə hesabatlarının auditinə dair təkliflər işləyib hazırlasın və həmin proqrama müvafiq əlavə və dəyişiklikləri nəzərdə tutan layihəni təqdim etsin.

2. Aparatın rəhbəri Q.Bayramova, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, Auditorlar Palatası Şurasının 2009-cu il 29 may tarixli 200/5 saylı qərarı ilə təsdiq edilmiş "Siyası partiyalarda auditin aparılmasına dair proqram"ında siyasi partiyaların illik maliyyə hesabatlarının auditinə dair müvafiq əlavə və dəyişikliklər təsdiq edildikdən sonra Palatanın üzvlərinin və maraqlı tərəflərin iştirakı ilə bu proqrama həsr olunmuş seminarın keçirilməsi təmin edilsin.

**PALATANIN SƏDRİ V.NOVRUZOV**